# MDU Dünya Rektorlar Forumunda təmsil olunub



## Bişkekdə "Milli innovasiya ekosisteminin qurulmasında universitetlərin rolu" mövzusunda forum keçirilib

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Qırğız Respublikasının paytaxtı Bişkekdə keçirilən Dünya Rektorlar Forumunda iştirak edib. "Milli innovasiya ekosisteminin qurulmasında universitetlərin rolu" mövzusuna həsr olunan Forum Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) birgə təşkilatçılığı ilə keçirilib.

MDU-dan AZƏRTAC-a bildirilib ki, foruma dünyanın 60-a yaxın ölkəsindən 100-dən çox ali təhsil müəssisəsinin rəhbərləri, ekspertlər, beynəlxalq təşkilatların, proqram və fondların nümayəndələri qatılıb.

Forumun açılış mərasimində Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri Akılbek Japarov, WIPO-nun Baş direktoru Daren Tanq, Dünya Bankının məsul əməkdaşı Rita Almeyda, Qırğız Respublikasının təhsil və elm naziri Almazbek Beyşenaliev çıxış ediblər.

Proqrama uyğun olaraq Forumun ilk günündə "İnnovasiyalar - iqtisadi artımın mühərrikidir", "İnnovasiya siyasəti və idarəetmə", "İnnovasiyalar və sosial təsir", "İnnovasiya ekosisteminin dayanıqlı inkişafının qurulması. Ən yaxşı təcrübə", "Ali təhsildə sahibkarlığın inkişafı", "Akademik və sənaye müəssisələri arasında texnoloji transfer" və "Startaplar və inkubasiya" mövzularında panel sessiyalar keçirilib. Panel sessiyalarda ali təhsil müəssisələri arasında əməkdaşlığın əsas istiqamətləri, birgə kadr hazırlığı və təhsil sistemlərinin inteqrasiya imkanları, eləcə də universitetlərin tədqiqat və innovasiya fəaliyyətlərinin səmərəliliyinin artırılması, əqli mülkiyyətin kommersiyalaşdırılması, ölkələrin inkişafı üçün faydalı texnologiyaların transferi və digər məsələlər müzakirə edilib.

MDU-nun rektoru Ş.Bayramov "İnnovasiya ekosisteminin dayanıqlı inkişafının qurulması. Ən yaxşı təcrübə" adlı panel sessiyasında "Yeni dövrün universitetinin qurulması: innovativ və dayanıqlı inkişaf əsaslı ali təhsil müəssisəsi konsepsiyası" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Ş.Bayramov MDU-nun timsalında dövlətin və tərəfdaşların dəstəyi ilə universitetin modernləşdirilməsi istiqamətində atılan addımlar, qarşıya qoyulan strateji hədəflər və həll edilməli olan əsas çağırışlardan bəhs edib və dayanıqlı inkişaf əsaslı ali təhsil müəssisəsinə transformasiyanın konseptual məzmunu ilə bağlı fikirlərini bölüşüb.

Növbəti gün Forum öz işini Beynəlxalq Təhsil və Karyera Sərgisi ilə davam etdirib. Bişkek Dövlət Universitetində baş tutan sərgiyə qatılan MDU-nun rektoru Ş.Bayramov Qırğız Respublikasının ali təhsil müəssisələrinin pavilyonları, eləcə də Muras İncəsənət Sərgisi, Etno-Sərgi və beynəlxalq təhsil təşkilatlarının stendləri ilə tanış olub. Bununla yanaşı, ali təhsilin aktual mövzularına həsr olunan təqdimatlarda iştirak edən Ş.Bayramov Forumda təmsil olunan bir sıra xarici və yerli universitetlərin rektorları ilə ikitərəfli əməkdaşlıq barədə müzakirələr aparıb.

Forum çərçivəsində MDU ilə Qırğız İqtisad Universiteti arasında Anlaşma Memorandumu imzalanıb. Memorandum universitetlər arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın yaradılmasını və birgə fəaliyyətlərin həyata keçirilməsini özündə ehtiva edir.

### MDU Qırğız İqtisad Universiteti ilə əməkdaşlıq edəcək

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov Dünya Rektorlar Forumunda (World Rectors' Forum) iştirak məqsədilə Bişkek şəhərinə səfəri çərçivəsində Qırğız İqtisad Universitetində (Kyrgyz Economic University - KEU) olub.

MDU-nun rektoru Ş.Bayramov KEU-nun rektoru Almaz Kadıraliyev ilə görüşüb. Görüşdə ölkələrimiz və xalqlarımız arasında tarixi və mövcud dostluq münasibətlərindən bəhs edilib. Forum çərçivəsində MDU və KEU arasında Anlaşma memorandumunun imzalanmasından məmnunluq ifadə edilib və potensial əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb. Rektorlar qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinin iki ölkə arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliklərini bildiriblər. Qeyd edilib ki, hazırda hər iki ali təhsil müəssisəsində reallaşdırılan modernləşmə tədbirləri kontekstində nəticəyönümlü birgə fəaliyyətlərin həyata keçirilməsi universitetlərin potensialının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir.

Sonra KEU-nun geniş tərkibdə rəhbər heyəti ilə görüş keçirilib. Görüşdə universitetlər arasında imzalanan Anlaşma memorandumunun yaratdığı imkanlar diqqətə çatdırılıb. Yeni təhsil texnologiyaları və idarəetmə metodları üzrə təcrübə mübadiləsi, ortaq təhsil və tədqiqat proqramları, birgə seminarlar, tələbə və müəllim mübadiləsi, Erasmus+ və digər qrant layihələrində birgə iştirak sahələrində real əməkdaşlığın yaradılmasına dair müzakirələr aparılıb.

Daha sonra KEU kollektivi qarşısında "Yeni dövrün universitetinin qurulması: Mingəçevir Dövlət Universiteti təcrübəsi" mövzusunda təqdimatla çıxış edən rektor Ş.Bayramov professor-müəllim və inzibati-rəhbər heyəti üzvlərinin çoxsaylı suallarını cavablandırıb. Dost Azərbaycanın müasirləşən universiteti ilə işbirliyinin qurulmasından məmnunluqlarını ifadə edən KEU kollektivinin üzvləri əməkdaşlığın konkret addımlarla möhkəmlənəcəyinə inandıqlarını söyləyiblər.

Ziyarət çərçivəsində rektor Ş.Bayramov KEU-nun mövcud tədris infrastrukturu və maddi-texniki bazası ilə tanış olub.

Qeyd edək ki, hazırda müasirləşmə mərhələsində olan MDU-da universitetin potensialının gücləndirilməsi məqsədilə beynəlxalq əməkdaşlığın inkişafına xüsusi önəm verilir.

# 600-dən yuxarı bal toplayaraq BMU-ya qəbul olan tələbələrlə görüş keçirilib

2022/2023-cü tədris ili üçün bakalavriat səviyyəsi üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayaraq Bakı Mühəndislik Universitetinə (BMU) daxil olan tələbələrlə görüş keçirilib.





Tədbirdə Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi yad edilib.

BMU-nun rektoru, professor Havar Məmmədov çıxışında gənc nəslin yüksək mənəvi keyfiyyətlərə yiyələnməsi, dövlətə və Vətənə bağlı, bilikli şəxsiyyət kimi yetişməsi üçün ardıcıl işin aparılmasının vacibliyindən söz açıb, torpaq uğrunda canlarından keçmiş iğid oğullarımızı ehtiramla anıb, bütün qazilərimizə isə şəfa diləyib. Rektor Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı zəfər tarixinin yazıldığı bir dövrdə ölkəmizin gələcək inkişafı naminə hər kəsin, o cümlədən təhsilalanların üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayıb.

Tələbələri qazandıqları yüksək nailiyyətləri münasibətilə təbrik edən rektor cari ildə BMU-ya qəbulun nəticələrinin uğurlu olduğunu bildirib. Statistik göstəriciləri nəzərə çatdıran Havar Məmmədov ötən tədris ili ilə müqayisədə BMU-ya qəbul olan tələbələr arasında 600-dən yüksək bal toplayanların sayının 53 nəfərdən 127 nəfərə, 500-dən çox bal toplayanların sayının isə 219 nəfərdən 314 nəfərə yüksəldiyini, eyni zamanda 127 nəfər arasında 49 nəfərin BMU-nun Cənubi Koreyanın İNHA Universiteti ilə birgə həyata keçirdiyi ikili diplom proqramına (İDP) daxil olduğunu söyləyib.

Gələcəkdə peşəkar mütəxəssis olaraq uğurlu karyera qurmaq üçün bu gün əldə edilən yüksək nərticələrin və toplanan yüksək balların bir başlanğıc olduğunu önə çəkən rektor tələbələrə bundan sonra da daha qətiyyət və əzmlə çalışmalarını tövsiyə edib. Bunun üçün universitetdə professional, akademik mühit, münbit şərait yaradıldığını, o cümlədən yüksək və keyfiyyətli tədris, güclü maddi-texniki baza, peşəkar yanaşma, əsaslı kadr hazırlığı, zəngin təcrübənin mövcud olduğunu, təhsilvermə imkanlarının müasir metodlarla daim təkmilləşdirildiyini və inkişaf etdirildiyini nəzərə çatdırıb.

Gəncləri öz dünyagörüşlərini, intellektual səviyyələrini daha da yüksəltmək məqsədilə sosial-ictimai həyatda fəal iştirak etməyə çağıran rektor BMU-da tələbə gənclər təşkilatlarının, çoxsaylı klubların fəaliyyət göstərdiyini deyib.

Görüşdə BMU-ya 2022/2023-cü tədris ilində ən yüksək nəticə - 691.3 bal ilə daxil olan, universitetin Mühəndislik fakültəsinin Kompüter elmləri ixtisasını (tədris ingilis dilində) seçən Leyla Məmmədli, 643.5 balla BMU-İNHA ikili diplom proqramının Elektrik və elektronika mühəndisliyi ixtisasına qəbul olan Zərifə Daşdəmirli çıxış edərək qarşıya qoyduqları hədəfə gedən yoldan danışıblar.

Daha sonra rektor tələbələrin suallarını cavablandırıb.

Görüşün sonunda Havar Məmmədov bütün tələbələrə yeni tədris ilində nailiyyətlər arzulayıb və BMU adından görüş iştirakçılarına hədiyyələr təqdim olunub.



# "Hədəfim yüksəlmək yox, yaxşı direktor olmaqdır"

Təhsildə keyfiyyət müəllimdən, məktəbdə keyfiyyət direktordan başlayır. İşini bilən, idarəetməni bacaran direktor məktəbin uğurunun yarısı deməkdir. Ölkəmizdə direktorların işə qəbulu müsabiqəsinin süzgəcindən keçərək məktəblərə təyinat alan direktorlar da məhz bu prinsiplə seçilir.

## Gənc direktor Şəlalə Məcidova: "Yaxşı idarəçi olduğumu göstərmək istəyirəm"

### Hədəfi direktor olmaq idi

2022/2023-cü tədris ilindən Şabran rayon Şəhid Cəlal Məmmədov adına Aygünlü kənd tam orta məktəbinə təyinat alan 34 yaşlı Şəlalə Məcidova məhz həmin direktorlardandır ki, özünə inanıb, ilk növbədə özü-özünü direktor kimi görüb: "Özümdə bu potensialı çoxdan hiss edirdim. İdarəetmə qabiliyyətim olmaqla yanaşı, direktorluq mənim uşaqlıq arzum, hədəfim olub. Direktorluq mənim üçün məqsəd idi".

Məktəb idarəedicisi olmağı onun kiçik ürəyinə sığışdıran isə oxuduğu məktəbin direktoru olub: "Müəllimliyə direktor olmaq üçün gəldim. Çünki mənə stimul verən, direktorluğu xəyaldan reallığa çevirməyimə səbəb olan biri vardı. Sumqayıt şəhəri "Təfəkkür" liseyində təhsil almışam. Liseyin direktoru Bəsirə Ağayeva idealım olub. O, ağlı, savadı, hətta zəhmi ilə məni valeh etmişdi. Ona bənzəmək istəyirdim. Məhz Bəsirə Ağayeva kimi direktor olmaq istədim".

### Əvvəlcə müəllim oldu

Bu məqsədinə çatmaq üçün əvvəlcə müəllim olmalıydı, o da olub. Sumqayıt Dövlət Universitetinin məzunudur. 2006-2010-cu illərdə universitetdə fizika müəllimliyi ixtisası üzrə təhsil alıb. Elə o vaxtdan Şabran rayonunda Hacıqaraqaşlı kənd ümumi orta məktəbinin müəllimidir. Bu il isə direktorluq üzrə yarışa girib və qazanıb: "2018-ci ildən direktorların işə qəbulu üzrə müsabiqəyə qatılıram. Keçid balı 24 olan imtahanlarda əvvəl 27, sonrakı il 31 bal topladım. Amma müsahibədən keçə bilmirdim. Nəhayət, bu il həm imtahanda daha yüksək - 41 bal topladım, həm də müsahibə komissiyasını inandıra bildim".

### Kənd məktəbinin gənc direktoru

Direktor olmaq, özü də ən yaxşılarından biri kimi tanınmaq arzusunu ürəyində bəsləyərək böyüdüb. Bu vəzifə onun xəyalında deyil, planlarında əks olunub. Bir gün mütləq bu vəzifəni daşıyacağına inanıb: "Müsabiqədə şəffaflığın təmin olunduğuna əmin idim. Bütün cavan müəllimlərə demək istəyirəm ki, heç vaxt özlərinə inanmaqdan vaz keçməsinlər. Qarşılarına məqsəd qoymaqdan, həmin məqsəd üçün israr etməkdən çəkinməsinlər".

### Çoxlu planları...

Artıq məqsədinə nail olan gənc direktorun bundan sonrakı planı nədir?

Bu istiqamətdə nəinki planı var, artıq tədbirlər görməyə də başlayıb: "Əvvəla, direktoru olduğum məktəbi rayon səviyyəsində indikindən daha yuxarı səviyyəyə çatdırmağı planlaşdırıram. Hazırda mövqeyimiz o qədər də ürəkaçan deyil. Ötən tədris ili üzrə buraxılış imtahanlarında IX sinif şagirdlərimiz arasında ən yüksək 168 bal, ən az 32 bal olub. 12 məzunumuzdan 3 nəfəri ali məktəbə qəbul olunub. Müəllimlərlə danışmışam, bu istiqamətdə hərəkətə keçirik. İlk növbədə akademik göstəricilərimizə təsir edəcək addımlar atacağıq. Mən də olmaqla, hər bir müəllim şagirdlərimizlə daha çox işləyəcək. Fizika və riyaziyyat üzrə mən özüm də şagirdlərimizə əlimdən gələn dəstəyi verəcəyəm. Başqa sahələrdə də məktəbimizin şöhrət qazanmağını istəyirəm. Məsələn, qız şagirdlərimizdən birinin yaxşı tennis oynadığını öyrəndim. Valideynləri ilə danışdım ki, onun yarışlarda iştirakını təmin edək".

### Yeni hədəfləri var

34 yaşlı məktəb direktoru üçün növbəti hədəf də direktor olmaqdır, bu dəfə rayonun ən yaxşı məktəbinə: "Yüksəlmək deyil, direktor olmaq hədəfimdir. Özümü Aygünlüdə sınamaq, yaxşı idarəedici olduğumu göstərmək istəyirəm. Əgər burada uğur qazansam, rayonumuzun ən yaxşı məktəbinin direktoru olmağa iddialıyam".

**Ruhiyyə DAŞSALAHLI**